AZƏRBAYCAN RESPUBLİKAS!
ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ
İLƏ
TÜRKİYƏ RESPUBLİKASI ƏMƏK VƏ
SOSİAL MÜDAFİƏ NAZİRLİYİ ,

ARASINDA ƏMƏKDAŞLIQ PROTOKOLU

*Azərbaycan Respublikası Əmək* ***və*** *Əhalinin Sosiai Müdafiəsi Nazirliyi iiə Türkiyə Respublikası Əmək* ***və*** *Sosial Müdafiə Nazirliyi araiasmda mövcud of an əməkdaşlığı* ***hər iki*** *ölkənin mənafeinə uyğun olaraq inkişaf etdirmək məqsədi* ***ilə*** *aşağıdakı məsələlərdə razılığa gəlmişlər:*

MADDƏ 1

*Əmək fəaliyyətinin təşkil edilməsi, əmək müfəttişliyi, işçilərin sağlamlığı və əməyin mühafizəsi, sosial müdafiə, məşğulluq, beynəlxalq təşkilatlarla əlaqələr, peşə təhsili, peşə yönümü və əmək reabilitasiyası sahələrində təcrübə mübadiləsi həyata keçirmək.*

MADDƏ 2

*İşçi qüvvəsinin hazırlanması, məşğulluqla əlaqədar məsləhətləşmələrin keçirilməsi, idarə etmə və istehsal mədəniyyətinin aşılanması, əməyin mühafizəsi sahələrində əməkdaşlıq etmək.*

MADDƏ 3

*Əməyin mühafizəsi və təhlükəsizliyi xidmətlərinin qabaqcıl səviyyəyə çatdırılmasına məd'ul olan mütəxəssilərin hazırlanmasında və əmək şəraitini yoxlamaq üçün laboratoriyaların yaradılmasında texniki yardım göstərmək .*

MADDƏ 4

*Sosial müdafiə və sosial sığorta sistemlərində islahatlar aparılmasına köməklik göstərmək .*

MADDƏ 5

*Hər iki ölkədə çalışan və çalışacaq işçilərin məsələlərini təsbit və həll etmək üçün yaradılacaq texniki bir hey"ətin ən qısa müddətdə işə başlamalarını tə"min etmək.*

MADDƏ 6

*Əmək müfəttişliyinin yaradılmasına və işinin təşkil edilməsinə köməklik göstərmək.*

MADDƏ 7

*h izi ki və zehni xəstələrin peşə təhsilinin, peşəyə və cəmiyyətə uyuşrnaiarının möhkəmləndirilməsində qarşılıqlı iş aparmaq .*

MADDƏ 8

*Əlil arabalarının istehsalının və tə”mirinin təşkilində yardımçı olmaq.*

MADDƏ 9

*Hər iki Nazirliyin vəzifə dairəsinə daxil olan məsələlər üzrə lazım olduqda qarşılıqlı mütəxəssis mübadiləsinə imkan yaratmaq və mütəxəssislərin gediş-gəliş işlərini asanlaşdırmaq.*

MADDƏ 10

*Məşğulluq idarələrinin və əmək bazarının məlumat sisteminin inkişaf etdirilməsi sahəsində birgə iş fəaliyyəti göstərmək imkanlarını araşdırmaq.*

MADDƏ 11

*Tərəflər ildə bir dəfə növbə ilə Bakıda və Ankarada toplanaraq bu protokolda nəzərdə tutulmuş məsələlərin həyata keçirilməsi gedişini müzakirə edəcəklər.*

*du protokol 15.12.1995 tarixində Bakıda Azərbaycan dilində və Türkcə iki nüsxədə hazırlanaraq imzalanmış və hor iki nüsxənin mətni eyni qüvvəyə malikdir.*

| | |
|---|---|
| Azərbaycan Fiespüblikası | Türkiyə Respublikası |
| Əmək və Əhalinin Sosial | Əmək ve Sosial Müdafiə |
| Müdafiəsi Nazirliyi | Nazirliyi |